**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# HÜSEYN CAVİD İRSİ MÜASİR AZƏRBAYCAN VƏ DÜNYA ƏDƏBİYYATŞÜNASLIĞINDA

| | |
|---|---|
| İxtisas: | 5716.01 – Azərbaycan ədəbiyyatı |
| Elm sahəsi: | Filologiya |
| İddiaçı: | **Könül Rauf qızı Məhərrəmova** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutunun Şəxsi arxivlərin tədqiqi şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya elmləri doktoru
**Gülbəniz İbrahim qızı Babaxanlı**

Rəsmi opponentlər: filologiya elmləri doktoru, professor
**Fərman Yunis oğlu Xəlilov**

filologiya elmləri doktoru, dosent
**Xuraman Bəhmən qızı Hümmətova**

filologiya üzrə fəlsəfə doktoru
**Nuranə Firudin qızı Əsədullayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya şurası

Dissertasiya şurasının sədri:
AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru,
professor
**Muxtar Kazım oğlu İmanov**

Dissertasiya şurasının elmi katibi:
filologiya üzrə fəlsəfə doktoru, dosent
**Afaq Xürrəm qızı Ramazanova**

Elmi seminarın sədri:
filologiya elmləri doktoru, dosent
**Leyla Kamran qızı Məmmədova**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan romantizminin ən görkəmli nümayəndələrindən biri, böyük şair və dramaturq Hüseyn Cavid ədəbiyyatımızın inkişafında mühüm rol oynamışdır. O, insanın daxili dünyası, ictimai həyatı, cəmiyyətdə baş verən hadisələr və insana məhəbbət mövzularına həsr olunmuş lirik şeirləri, Azərbaycan və dünya xalqlarının həyatının qədim və müasir dövrlərindən götürülmüş mövzularda yazılmış dram əsərləri ilə ədəbiyyatımızı zənginləşdirmişdir.

H.Cavidin təkrarsız bədii istedadla yaratdığı zəngin ədəbi irsini bütün zamanlarda dərindən dərk etməyə, əsaslı şəkildə öyrənməyə böyük ehtiyac vardır. H.Cavid yaradıcılığı insanın özünüdərketmə vəzifəsinin öhdəsindən layiqincə gəldiyi mühüm bir örnəkdir. Nə qədər ki insan var, insan hisləri, insan cəmiyyəti var özünüdərk məsələsi də hər zaman öz aktuallığını qoruyacaqdır. Bu baxımdan H.Cavid yaradıcılığı da öz əbədiyaşarlığını daim hifz etməkdədir. Xalqımızın ümummilli lideri, dünya şöhrətli siyasi xadim, ulu öndər Heydər Əliyev böyük şairin bədii irsini yüksək qiymətləndirirdi: *"Hüseyn Cavid Azərbaycan xalqını, onun mədəniyyətini, ədəbiyyatını, elmini yüksəklərə qaldıran böyük şəxsiyyətlərdən biridir. H.Cavidin yaratdığı əsərlər Azərbaycan xalqının milli sərvətidir. Onlar bu gün üçün, gələcək nəsillər üçün dərslik kitabıdır"*[1].

Cavidşünaslığın ədəbiyyat tariximizdə bir elmi istiqamət kimi müəyyənləşməsi də H.Cavidin ölməz irsinə olan sönməz maraqdan ibarətdir. Cavidşünaslığın təşəkkülü şairin ədəbiyyat səhnəsində göründüyü ilk günlərdən başlayır. Daha sonra bu elmi istiqamət pantürkizm, panislamizm, mürtəce romantizm damğası ilə ləkələnsə də, Cavid irsinin öyrənilməsi qadağan zonasında olsa da, böyük ədibin yaradıcılığına maraq heç zaman səngiməyib. 1956-cı ildə

---

[1] Hüseyn Cavid əsərlərinin gənc nəslin tərbiyəsində rolu: (Respublika elmi konfransının materialları) / red. hey. İ.Həbibbəyli, T.Kərimli, G.Babaxanlı. – Bakı, – 2015. – s.63.

repressiya qurbanları bəraət qazandıqdan sonra Cavid irsinə müraciət bərpa olunmuş, əsərləri yenidən nəşr olunmuş, pyesləri səhnəyə qoyulmuş, əbədiyaşar yaradıcılığı monoqrafik tədqiqat obyektinə çevrilmişdir. Ulu öndər H.Əliyevin Azərbaycanda siyasi hakimiyyətə gəlişindən sonra cavidşünaslıq yeni ahəngə qədəm qoymuş və yüksələn xətlə inkişaf etmişdir.

İndiyədək H.Cavid yaradıcılığı ilə əlaqədar geniş aspektdə Cavidə "qayıdış"dan – 80-ci illərdən sonrakı ədəbi-tənqidi və elmi-nəzəri əsərlər, mövcud tədqiqatlarda irəli sürülən fikir və mülahizələr, monoqrafiya və dissertasiyalar sistemli bir elmi araşdırma obyektinə çevrilməmişdir. Görkəmli ədəbiyyatşünas və tənqidçilər M.Cəfər, C.Cəfərov, Y.Qarayev, Ə.İsmayılov, M.Əlioğlu, H.Həşimli, R.Hüseynov, G.Babaxanlı, Q.Məmmədli, T.Əfəndiyev, İ.Orucəliyev, K.Əliyev, A.Turan, T.Hüseynli, Ş.Sadıqov, S.Vəliyeva və başqaları cavidşünaslığın təməl prinsiplərini müəyyənləşdirmiş, H.Cavidin yaradıcı şəxsiyyətini, zəngin ədəbi irsini aydınlatmaq, təhlil və tədqiq edib dəyərləndirmək məqsədilə bir çox elmi-nəzəri, ədəbi-tənqidi məqalə və monoqrafiyalar yazaraq cavidşünaslığımızı zənginləşdirmiş, fundamental tədqiqat işləri ərsəyə gətirmişlər. Qeyd olunan müəlliflərin Cavid irsi ilə bağlı araşdırmaları dissertasiyada ətraflı təhlil edilmiş, istinad mənbəyi kimi onlardan geniş istifadə olunmuşdur. Bununla belə, Cavid irsinə yenidən qayıdıb cavidşünaslıqla bağlı müasir problemləri, böyük Cavid həqiqətini yeni baxış bucağından, çağdaş ədəbi tənqid müstəvisində təhlil və tədqiq edərkən daim yeni, aktual ədəbi-estetik dəyərlər ortaya çıxır. Bu baxımdan "Hüseyn Cavid irsi müasir Azərbaycan və dünya ədəbiyyatşünaslığında" mövzusunda dissertasiya işinin işlənilməsi mövcud zərurətdən irəli gəlir və Azərbaycanşünaslığın mühüm bir parçası kimi aktuallıq kəsb edir.

Cavidşünaslıq materiallarının bir qismi elə Cavid yaradıcılığına aid məqalə və kitabların tədqiqinə həsr olunmuşdur. Burada ayrı-ayrı kitablar haqqında resenziyalar da mühüm rol oynayır: C.Xəndan "Faydalı tədqiqat", "Azərbaycan ədəbiyyatına dair qiymətli tədqiqat", Z.Əkbərov "Faydalı tədqiqat əsəri", V.Əliyev "Qiymətli tədqiqat əsəri", Ə.İbadoğlu "Romantizmin tədqiqi" əsərləri

bu qəbildəndir. Bəzi məqalələrdə müəyyən dövrdə H.Cavidə həsr olunmuş tədqiqatlar və ya görkəmli ədibin ayrıca bir əsərinə həsr olunmuş araşdırmalar öyrənilir (Z.Əkbərov "Şeyx Sənan" və ədəbi tənqid", İ.Həbibov "Şeyx Sənan" mövzusunun tədqiqi"). H.Cavid yaradıcılığına həsr olunmuş monoqrafiyalarda da həmin dövrə qədər aparılmış tədqiqatlar xülasə edilir[2]. Bundan əlavə, H.Cavidə həsr olunmuş tədqiqatları ümumi şəkildə öyrənən elmi əsərlər də var[3].

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Hüseyn Cavidin Ev Muzeyi[1] cavidşünaslıq tədqiqatlarının mərkəzləşdiyi elm ocağı vəzifəsini də daşıyır. Burada H.Cavidin əsərləri ilə yanaşı, onun həyat və yaradıcılığına həsr olunmuş araşdırmalar aparılır, konfranslar keçirilir və əvvəllər aparılmış tədqiqatlar yenidən nəşr olunur. Bu cəhətdən Muzeyin fəaliyyətinə dair ümumiləşdirici tədqiqatın aparılması da zəruridir.

Xüsusən son dövrlərdə dünya ədəbiyyatşünaslığında da ümumbəşəri dühamız Hüseyn Cavidin yaradıcılığına geniş müraciət olunur. Bu cəhətdən türk dünyasında, Avropa və Amerikada aparılan tədqiqatların öyrənilməsi də xüsusi əhəmiyyətə malikdir.

**Tədqiqatın obyekti və predmeti.** Dissertasiyanın obyekti cavidşünaslıq materialları, H.Cavid irsinin təhlili və tədqiqinə həsr olunmuş məqalə və monoqrafik əsərlərdir. Dissertasiyanın tədqiqat predmeti isə onları geniş aspektdə sistemli şəkildə elmi araşdırmaya cəlb etməkdir. Cavidşünaslığın ədəbi-tarixi və nəzəri-estetik xarakteri müəyyən olunarkən həm Cavid irsinə, həm də Azərbaycan, türk və dünya cavidşünaslığına tədqiqatın obyektləri kimi müraciət edilmişdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Hüseyn Cavidə həsr olunmuş ilk yazılar XX əsrin əvvəllərindən işıq üzü görməyə

---

[2] Əfəndiyev, T. Hüseyn Cavid: ideal həqiqət axtarışı / T.Əfəndiyev. – Bakı: Proqress, – 2013. – 260 s.

[3] Babaxanlı, G. Azərbaycan ədəbi fikri və Hüseyn Cavid / G.Babaxanlı. – Bakı: Çaşıoğlu, – 2010. – 244 s. Babaxanlı, G. Azərbaycan ədəbi fikri və Hüseyn Cavid. II kitab / G.Babaxanlı. – Bakı: Elm və təhsil, – 2017. – 322 s. Babaxanlı, G. Azərbaycan ədəbi fikri və Hüseyn Cavid. III kitab / G.Babaxanlı. – Bakı: Elm və təhsil, – 2020. – 256 s.

başlamış, həmin dövrdən bu günə qədər cavidşünaslıq tədqiqatları genişlənərək davam etmişdir. Burada 1982-ci ildən etibarən bu sahədə görülən işlər öyrənilmişdir. Bu cəhətdən Muzeyin xüsusi rolu olmuş, cavidşünaslıq materiallarının toplanılıb otuz cildlik bir toplu halında nəşr edilməsi və hər il H.Cavidə həsr olunmuş elmi konfransların keçirilməsi, H.Cavid irsinin xarici ölkələrdə tanıdılması cavidşünaslığın inkişafında mühüm əhəmiyyət kəsb etmişdir. Dissertasiya işinin məqsədi bu sahədə görülən işləri sistemli şəkildə nəzərdən keçirmək, hər bir tədqiqat əsərini ayrı-ayrılıqda təhlil etməklə cavidşünaslığın ümumi mənzərəsini aydınlaşdırmaqdır.

Qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

– 1982-ci ildən başlayaraq Hüseyn Cavidə həsr olunmuş tədqiqatları nəzərdən keçirmək, onlardakı əsas müddəaları müəyyənləşdirmək və müqayisə etmək;

– Müstəqillik dövründə Hüseyn Cavidin həyat və yaradıcılığı mövzusunda yazılmış əsərləri təhlil etmək, onların əvvəlki tədqiqatlardan fərqlənən cəhətlərini aşkara çıxarmaq;

–Muzeyin H.Cavidin bədii əsərləri və cavidşünaslıq materiallarının nəşri sahəsində gördüyü işləri öyrənmək;

–Muzeydə cavidşünaslıq sahəsində aparılmış tədqiqatları nəzərdən keçirmək, Muzeydə keçirilən konfransların materiallarını təhlil etmək;

– Digər türk xalqlarının ədəbiyyatşünaslığında H.Cavidin həyat və yaradıcılığının öyrənilməsi sahəsində görülən işləri müəyyənləşdirmək;

– Avropa və Amerikada H.Cavidə həsr olunmuş tədqiqatları nəzərdən keçirmək, bu sahədə əsas istiqamətləri müəyyən etmək.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Burada toplanmış fakt və materialların sistemləşdirilməsi, müqayisəli-tipoloji, tarixi, ümumiləşdirmə metodlarından istifadə olunmuşdur. Dissertasiyada H.Cavidin həyat və yaradıcılığına həsr olunmuş ədəbi-tənqidi, elmi və elmi-kütləvi məqalələr, konfrans materialları, xatirə yazıları, kitab və monoqrafiyalardan istifadə olunmuşdur. Cavidşünaslıq materiallarını daha yaxşı təhlil edə bilmək üçün bu materialların

tədqiqi və təhlilinə aid yazılmış digər tədqiqat əsərlərinə də müraciət olunmuşdur. 1982-ci ildən başlayaraq aparılan tədqiqatlar əsas götürülsə də, onlar daha əvvəlki dövrlərin tədqiqatları ilə müqayisə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Hüseyn Cavidin həyat və yaradıcılığının öyrənilməsinə həsr olunmuş tədqiqatların Azərbaycan ədəbiyyatşünaslığında xüsusi yer tutması.

2. 1982-ci ildən – H.Cavidin anadan olmasının 100 illik yubileyindən etibarən bu sahədə görülən işlərin daha geniş miqyas alması, aparılan tədqiqatlarda sovet ideologiyasının təsirinin zəifləməsi, H.Cavid yaradıcılığına tənqidi münasibətin yumşalması.

3. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra H.Cavid ədəbiyyatımızın ən görkəmli nümayəndələri sırasında tədqiq və tədris edilməsi, onun əsərlərinə milli Azərbaycan ədəbiyyatı ənənələri baxımından yanaşılması.

4. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Hüseyn Cavidin Ev Muzeyi cavidşünaslığın inkişafında mühüm xidmətlər göstərməsi. Muzey tərəfindən H.Cavid əsərlərinin müxtəlif dillərə tərcümə olunaraq nəşr və təbliğ edilməsi. H.Cavid yaradıcılığının dünyaya tanıdılması.

5. Muzeyin nəşr etdirdiyi "Cavidşünaslıq" araşdırmalar toplusunun bu sahədə yazılmış yazıları bir yerə toplaması və oxucular üçün əlçatan etməsi.

6. Muzeydə H.Cavidə həsr olunmuş konfranslar. Cavidşünas alimlərin bir yerə toplaşması, bir-biri ilə fikir mübadiləsi aparması üçün böyük əhəmiyyət daşıması.

7. Digər türk xalqlarının ədəbiyyatşünaslarının da H.Cavidin həyat və yaradıcılığını, xüsusən onun mövzusunu türk dünyasından, türk xalqlarının həyatından götürən əsərlərini öyrənməsi.

8. H.Cavid yaradıcılığının Avropa və Asiyada da diqqəti cəlb etməsi, Cavid irsinin müxtəlif müəlliflərlə müqayisəli təhlilə cəlb olunması.

**Tədqiqatın elmi yeniliyi.** Cavidşünaslıq materiallarının tədqiqi və təhlilinə həsr olunmuş bu tədqiqat bu sahəyə aid

Azərbaycan dilində yazılmış ilk dissertasiyadır. Burada H.Cavidin həyat və yaradıcılığına həsr olunmuş materiallar 1982-ci ildən, yəni H.Cavidin anadan olmasının 100 illik yubileyindən başlayaraq nəzərdən keçirilir. Müstəqillik dövründə H.Cavidə həsr olunmuş materialların təhlili, Muzeydə bu sahədə görülən işlərin sistemli şəkildə araşdırılması, ölkəmizdən kənarda, xüsusən digər türk dövlətləri, Avropa və Amerikada bu sahədə aparılmış tədqiqatların öyrənilməsi tədqiqatın elmi yeniliyini şərtləndirir. Çağdaş cavidşünaslıq materiallarının böyük bir qismi ilk dəfə bu dissertasiya işində təhlil olunur.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən olan H.Cavidin həyat və yaradıcılığına həsr olunmuş tədqiqatların təhlili Azərbaycan ədəbiyyatşünaslığının və ədəbi tənqidinin vəziyyətinin öyrənilməsi üçün əhəmiyyətlidir. Xüsusən repressiyaya məruz qalmış bu böyük sənətkarın yaradıcılığına müxtəlif dövrlərdə verilən qiymətin nəzərdən keçirilməsi Azərbaycan ədəbiyyatşünaslarının müxtəlif dövrlərdəki fəaliyyətinin də yaxından təhlili üçün imkan yaradır. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Hüseyn Cavidin Ev Muzeyinin bu sahədəki işlərinin araşdırılması muzeyin çoxşaxəli fəaliyyətinin daha yaxşı anlaşılmasına şərait yaradır. H.Cavid yaradıcılığının ölkəmizdən kənarda öyrənilməsi ilə bağlı tədqiqat aparılması dünyanın müxtəlif ölkələrində, xüsusən qardaş türk xalqlarında Azərbaycan ədəbiyyatına göstərilən marağı və ədəbiyyatımızın ölkəmizin sərhədlərindən kənarda nə qədər tanındığını bir daha göstərir.

Dissertasiya işindən ali məktəblərdə Azərbaycan ədəbiyyatı və Ədəbi tənqid tarixi, Muzeyşünaslıq və s. fənlərin tədrisində, bu sahəyə dair tədqiqatların aparılmasında istifadə etmək mümkündür.

**Tədqiqatın aprobasiyası və tətbiqi.** Tədqiqatın əsas məzmunu Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi elmi məcmuələrdə nəşr olunmuş məqalələrdə, eləcə də respublika və beynəlxalq əhəmiyyətli simpozium və konfranslardakı məruzələrdə öz əksini tapmışdır. Nəşr olunmuş 22 məqalə və tezis dissertasiyanın məzmununu əhatə edir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyasının Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun Şəxsi arxivlərin tədqiqi şöbəsində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, 3 fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir. Giriş 11342 işarə, I fəsil 92213 işarə, II fəsil 73934 işarə, III fəsil 103470 işarə, nəticə 3458 işarə, ədəbiyyat siyahısı. Dissertasiya işi ümumilikdə 284417 işarədən ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Tədqiqatın **"Giriş"** hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi əsaslandırılır, tədqiqatın obyekti və predmeti, işin məqsəd və vəzifələri, mənbələri, metod və üsulları müəyyənləşdirilir, müdafiəyə çıxarılan əsas müddəalar öz əksini tapır, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, dissertasiyanın aprobasiyası, tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi haqqında barədə məlumat verilir.

Dissertasiyanın I fəsli **"Hüseyn Cavid irsi çağdaş Azərbaycan ədəbi-nəzəri fikrində"** adlanır. Bu fəslin **"Hüseyn Cavid irsinin öyrənilməsində yeni mərhələ (1982-1990-cı il)"** adlanan I paraqrafda qeyd olunur ki, 1956-cı ilin fevralında keçirilmiş Sov.İ.K.P-nin XX qurultayında Stalinin şəxsiyyətinə pərəstiş kəskin tənqid olunmuş, görkəmli Azərbaycan şair və dramaturqu Hüseyn Cavid də 6 mart 1956-cı ildə ölümündən sonra bəraət qazanmışdır. Stalinizmin ifşasından sonra H.Cavidin şəxsiyyətinə və yaradıcılığına yenidən maraq artmış, irsi nəşr və təbliğ olunmağa başlamış, "Cavidə qayıdış" bir ədəbi proses halını almışdır.

Rasizadələr ailəsi və H.Cavid yaradıcılığı ilə hələ məktəb illərindən yaxşı tanış olan, gənclik illərində Naxçıvanda "Şeyx Sənan" pyesinin teatr tamaşasında rol alan Heydər Əliyevin siyasi

hakimiyyətə gəlişindən sonra isə cavidşünaslıqda yeni epoxa başlanmışdır. Bu mərhələdə H.Cavidin məzarının uzaq Sibir çöllərindən Vətənə gətirilməsi ərəfəsində, şairin 100 illik yubileyi zamanı və ondan sonra cavidşünaslıq yeni vüsət aldı. 25 noyabr 1981-ci ildə H.Əliyevin təşəbbüsü ilə Azərbaycan KP MK və Nazirlər Soveti H.Cavidin Bakıda və Naxçıvanda ev muzeylərinin yaradılması haqqında 604 saylı qərar qəbul edildi. 1982-ci ildə Hüseyn Cavidin 100 illik yubileyinin qeyd olunması və bu yubileyin keçirilməsinin H.Əliyevin rəhbərliyi altında partiya komitəsinin qərarı ilə rəsmiləşdirilməsi cavidşünaslıqda yeni bir mərhələnin başlanmasına səbəb oldu.

H.Cavidin 100 illik yubileyi 8 iyun 1984-cü il tarixində iki il gec olsa da, M.Əzizbəyov adına teatrda keçirildi. H.Cavid sənətinin müxtəlif problemlərinə həsr olunmuş araşdırmalar o dövrün mötəbər mətbuat orqanlarının səhifələrini bəzədi. 1986-cı ildə İ.Orucəliyev "Hüseyn Cavid yaradıcılığı Azərbaycan sovet ədəbi tənqidi və ədəbiyyatşünaslığında" mövzusunda dissertasiya müdafiə etdi.

Yubiley nəşrlərindən "Cavidi xatırlarkən" kitabı 1982-ci ildə çap olunmuşdur[4]. Kitabda H.Cavid haqqında müxtəlif illərdə yazılmış 8 məqalə, ikinci hissədə isə 20 xatirə yazısı verilmişdir.

1982-ci ildə Cavidə həsr olunmuş tədqiqatlardan biri də Qulam Məmmədlinin "Cavid – ömrü boyu. Həyat və yaradıcılıq salnaməsi (1882-1941)" adlı kitabıdır[5]. Kitabda Cavidin anadan olduğu dövrdən həbs olunduğu günə qədər onunla bağlı bütün məlumatlar əhatə edilməyə çalışılmışdır.

Akademik Rafael Hüseynovun 1987-ci ildə çap olunmuş "Vaxtdan uca" adlı kitabının "Cavidlər" adlanan ikinci hissəsində Cavidlər ailəsinin 4 üzvü barədə maraqlı məlumatlar verilmişdir[6]. "Cavidlər" bədii əsər təsiri bağışlayır.

---

[4] Cavidi xatırlarkən / red. A. Zamanov (ön sözün müəllifi), H. Məmmədzadə ; tərt. edəni İ. Orucəliyev. – Bakı: Gənclik, – 1982. – 392 s.

[5] Məmmədli, Q. Cavid-ömrü boyu (həyat və yaradıcılıq salnaməsi) / Q.Məmmədli. – Bakı: Yazıçı, – 1982. – 298 s.

[6] Hüseynov, R.B. Vaxtdan uca / R.B.Hüseynov. – Bakı: İşıq, – 1987. – 361 s.

1982-1990-cı illər ərzində Azərbaycanda görkəmli şair və dramaturq Hüseyn Cavidin həyat və yaradıcılığı ilə bağlı yeni bir mərhələ başlanmış, H.Cavid bəraət aldıqdan sonra irsinə real qiymət vermək uğrunda ilk mütərəqqi addımlar atılmışdır.

I fəslin "**Azərbaycan cavidşünaslığı müstəqillik dövründə**" adlanan II paraqrafında müstəqillik dövründə H.Cavidə həsr olunmuş kitablar, monoqrafiyalar, məqalələr və dissertasiyalar nəzərdən keçirilir.

Fil.ü.f.d. İsgəndər Atillanın "Əsrin şairi" adlı silsilə kitabları da H.Cavidin həyat və yaradıcılığına həsr olunmuşdur.

Fil.e.d., prof. Hüseyn Həşimlinin "Hüseyn Cavidin lirikası və Avropa poetik ənənələri" adlı kitabı[7] H.Cavid yaradıcılığında Avropa poeziyasına məxsus poetexnik vasitələrdən və lirik janrlardan istifadəyə həsr olunmuş yeganə monoqrafik tədqiqat kimi diqqətəlayiqdir.

Fil.e.d., prof. Əjdər Tağıoğlunun "Hüseyn Cavid yaradıcılığı və dünya ədəbiyyatında demonizm ənənəsi" adlı monoqrafiyasında "İblis" faciəsi ilə yanaşı, Cavidin İblisdən əvvəl və sonra yaratdığı demonik obrazlardan da danışılır[8].

Ş.Sadiqin "Hüseyn Cavid yaradıcılığında qəhrəman konsepsiyası" adlı monoqrafiyasında H.Cavidin müxtəlif mövzularda yazılmış əsərlərindəki qəhrəmanlar nəzərdən keçirilir[9].

Fil.e.d. Sona Vəliyevanın "Hüseyn Cavid və müasirləri" kitabında ədibin müasirləri – A.Sur, A.Şaiq, M.Ə.Rəsulzadə, M.B.Məmmədzadə, C.Cabbarlı, S.Vurğun, Ə.Şərif və b.-nın Hüseyn Cavidə münasibətindən söz açılır[10].

---

[7] Həşimli, H. Hüseyn Cavidin lirikası və Avropa poetik ənənələri / H.Həşimli. – Bakı: Elm və təhsil, – 2012. – 92 s.

[8] Tağıoğlu, Ə. Hüseyn Cavid yaradıcılığı və dünya ədəbiyyatında demonizm ənənəsi / Ə.Tağıoğlu. – Bakı: Elm və təhsil, – 2015. – 296 s.

[9] Sadiq, Ş. Hüseyn Cavid yaradıcılığında qəhrəman konsepsiyası / Ş.Sadiq. – Bakı: Hədəf Nəşrləri, – 2011. – 364 s.

[10] Vəliyeva, S. Hüseyn Cavid və müasirləri / S.Vəliyeva. – Bakı: Zərdabi nəşr MMC, – 2020, – 192 s.

2021-ci ildə Səlahəddin Xəlilovun "Cavid fəlsəfəsi" adlanan 3-cü kitabı nəşr olunub. "Qərbin böhranı və insanlığın aqibəti" mövzusuna həsr olunan kitabda Cavidin əsərləri Qərb fəlsəfi fikri ilə müqayisədə öyrənilir[11].

2022-ci ildə akademik İsa Həbibbəylinin "Sənətkarın elmi pasportu" seriyasından "Hüseyn Cavid: həyatı və sənəti" monoqrafiyası işıq üzü görüb. Kitabda Hüseyn Cavidin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verilir, onun bioqrafiyasına dair məlumatlar bilavasitə mənbələrə istinadən təqdim olunur[12].

Ziyadxan Əliyevin "Hüseyn Cavid romantizmi rənglərin işığında" adlı kitabında H.Cavid yaradıcılığına həsr olunmuş incəsənət nümunələri[13], sənətşünaslıq üzrə fəlsəfə doktoru Məsməxanım Qubadovanın "Cavidin dramaturgiyasında türkçülük-turançılıq prinsipləri. (Əli bəy Hüseynzadənin bədii-fəlsəfi fikir müstəvisində)" adlı monoqrafiyasında H.Cavidin türkçülük fikirləri təhlilə cəlb edilir[14]. Fil.ü.f.d. Məlahət Babayeva "Hüseyn Cavidin linqvopoetikası" adlı monoqrafiyasında böyük sənətkarın bədii dili tədqiqat obyektinə çevrilir[15], fil.e.d. Sevil Həsənovanın "Hüseyn Cavidin ədəbi-bədii irsi mətbuatda" adlı monoqrafiyasında H.Cavidin publisistik fəaliyyətindən söz açılır[16].

Azərbaycan Milli Kitabxanası da ədibin yubileyi ilə əlaqədar Hüseyn Cavid biblioqrafiyasını hazırlamışdır. Burada şəxsi biblioqrafiyalar üçün səciyyəvi olan məlumatlarla yanaşı, H.Cavidin

---

[11] Xəlilov, S. Cavid fəlsəfəsi. K. 3 Qərbin böhranı və insanlığın aqibəti / S.Xəlilov. – Bakı: Zərdabi Nəşr, – 2021, – 184 s.

[12] Həbibbəyli, İ. Hüseyn Cavid: həyatı və sənəti: (Hüseyn Cavid – 140) / İ.Həbibbəyli. – Bakı: Elm və təhsil, – 2022, – 103 s.

[13] Əliyev, Z. Hüseyn Cavid romantizmi rənglərin işığında / Z.Əliyev. Bakı: Zərdabi Nəşr MMC, – 2022, – 134 s.

[14] Qubadova, M. Cavidin dramaturgiyasında türkçülük-turançılıq prinsipləri. (Əli bəy Hüseynzadənin bədii-fəlsəfi fikir müstəvisində) / M.Qubadova. – Bakı: Elm və təhsil, – 2022, – 330 s.

[15] Babayeva, M. Hüseyn Cavidin linqvopoetikası / M.Babayeva. – Bakı: Elm və təhsil, – 2022, – 208 s.

[16] Həsənova, S. Hüseyn Cavidin ədəbi-bədii irsi mətbuatda / S.Həsənova. – Bakı: Təhsil EİM, – 2023, – 384 s.

xarici ölkə kitabxanalarının fondlarında saxlanılan əsərləri barədə də qeydlər var[17].

H.Cavidin həyat və yaradıcılığı Cənubi Azərbaycandan olan aydınların da araşdırma obyektinə çevrilmişdir. Rəhim Çavuş Əkbəri "Şeyx Sənan" faciəsini 2005-ci ildə fars dilinə tərcümə etmişdir[18]. Ə.H.Əlyar tərəfindən 2011-ci ildə H.Cavidin "Peyğəmbər" mənzum dramı, 2015-ci ildə "Şeyx Sənan" faciəsi mənzum şəkildə fars dilinə tərcümə edilmişdir[19]. H.Bəşirova 2012-ci ildə İranın Şəhid Behişti Universitetində "Hüseyn Cavidin "Topal Teymur" dramının fars dilinə tərcüməsi və təhlili" mövzusunda elmi iş müdafiə etmişdir[20].

Müstəqillik illərində Cavid şəxsiyyəti, həyatı, yaradıcılığı və fəaliyyəti ilə bağlı aparılan tədqiqatlar daha sərbəst, azad düşüncə işığında siyasi konyukturadan xilas olması ilə fərqlənir. Bu yazılar zamana qalib gəlmiş qüdrətli şair və dramaturq Hüseyn Cavidi olduğu kimi tanımağa kömək edir.

Müstəqillik dövründə H.Cavidin əbədiyaşar yaradıcılığı haqqında 20-dən çox fəlsəfə və elmlər doktorluğu dissertasiyası yazılmışdır. Əgər həmin dissertasiya işlərini ixtisas sahələri üzrə qruplaşdırsaq, böyük bir qisminin Azərbaycan ədəbiyyatı, yerdə qalan qisminin çox hissəsinin Ədəbiyyat nəzəriyyəsi yönümündən tədqiq edildiyini görərik.

Dissertasiyanın II fəsli "**Hüseyn Cavid irsinin qorunması, tədqiqi və təbliğində Azərbaycan Respublikası Mədəniyyət**

---

[17] Hüseyn Cavid (Hüseyn Abdulla oğlu Rasizadə). Biblioqrafiya / Tərt. M.İbrahimova, elmi red. K.Tahirov, red. A.Koçak. – Bakı: Zərdabi Nəşr, – 2022, – 754 s.

[18] Əkbəri, R.Ç. Hüseyn Cavid mənim ehsas gözümdə // Hüseyn Cavidin anadan olmasının 125 illiyinə həsr edilmiş "Hüseyn Cavid irsi və müasir dövr" Beynəlxalq elmi konfransının materialları, – Bakı, – 2007. – s.54.

[19] Əlyar, Əkbər Həmidi. Cavid // "Hüseyn Cavid və müasir gənclik" (Hüseyn Cavid – 134) Respublika elmi konfransının materialları, – Bakı, – 21 oktyabr, – 2016, – s.42.

[20] Şahtaxtı, S. Tehranda Hüseyn Cavidin yaradıcılığına həsr olunmuş elmi işin müdafiəsi uğurla keçib: [Elektron resurs] / Bakı, – 19 sentyabr, 2012. URL: https://sitat.news/tehranda-huseyn-cavidin-yaradiciligina-hesr-olunmus-elmi-isin-mudafiesi-ugurla-kecib

**Nazirliyi Hüseyn Cavidin Ev Muzeyinin rolu”** adlanır. Bu fəslin birinci paraqrafı “**Hüseyn Cavid irsinin tədqiq və təbliğində Muzeyin xidmətləri”**nə həsr olunmuşdur. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Hüseyn Cavidin Ev Muzeyi[*] hazırda ölkəmizdə cavidşünaslığın mühüm mərkəzlərindən biridir. Fil.ü.f.d. Salatın Əhmədlinin “Hüseyn Cavidin ev muzeyi” kitabından Muzeyin təkcə Cavid və Cavidlər ailəsinə aid materialların qorunub-sərgiləndiyi məkan deyil, həmçinin bu eksponatları fundamental-akademik səviyyədə öyrənən bir elmi tədqiqat müəssisəsi olduğunu da öyrənirik[21].

Muzeydə cavidşünaslıq fəaliyyəti istiqamətində görülən işlərdən biri də Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi Hüseyn Cavidin Ev Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi, filologiya üzrə elmlər doktoru Gülbəniz Babaxanlının “Azərbaycan ədəbi fikri və Hüseyn Cavid” adlı monoqrafiyasıdır [22]. Monoqrafiyada müxtəlif dövrlərdə Azərbaycan ədəbi fikrinin H.Cavidə münasibəti nəzərdən keçirilir, cavidşünaslığın bir elm kimi formalaşması, Cavid yaradıcılığına yeni yanaşma təhlil süzgəcindən keçirilir.

G.Babaxanlının “Azərbaycan ədəbi fikri və Hüseyn Cavid” adlı monoqrafiyasının ikinci hissəsində Cavid faciələrinin janr xüsusiyyətləri, Cavid əsərlərinin səhnə həyatı, ədib haqqında xatirələr ətrafında düşüncələr və Cavid irsinin tədqiqinə həsr olunmuş yeni elmi-nəzəri fikirlərin təhlili öz əksini tapır[23].

G.Babaxanlının “Azərbaycan ədəbi fikri və Hüseyn Cavid” monoqrafiyasının növbəti, üçüncü hissəsində XX əsrin 50-ci illərindən başlayaraq günümüzədək Cavidin ictimai-fəlsəfi görüşləri,

---

[*] Bundan sonra Muzey

[21] Əhmədli, S. Hüseyn Cavidin ev muzeyi / S.Əhmədli. – Bakı: Şirvannəşr, – 2009. – 168 s.

[22] Babaxanlı, G. Azərbaycan ədəbi fikri və Hüseyn Cavid / G.Babaxanlı. – Bakı: Çaşıoğlu, – 2010. – 244 s.

[23] Babaxanlı, G. Azərbaycan ədəbi fikri və Hüseyn Cavid. II kitab / G.Babaxanlı. – Bakı: Elm və təhsil, – 2017. – 322 s.

ictimai-siyasi, tarixi mövzularda əsərləri, türkçülüklə bağlı fikirləri, əsərlərinin dili və üslubu ilə bağlı araşdırmalar nəzərdən keçirilib[24].

G.Babaxanlının "Heydər Əliyev və Hüseyn Cavid" adlı kitabında Ümummilli Liderin Azərbaycan ədəbiyyatına, xüsusən də klassiklərimizin irsinə verilən qiymət, H.Əliyevin Cavidin ədəbi irsi və Cavidlər nəslinin nümayəndələri ilə tanışlığı, Hüseyn Cavidin Ev Muzeyinin yaradılmasında və H.Cavidin vətənə qayıdışında rolu kimi məsələlərə toxunulmuşdur[25].

Muzeyin Elmi Şurasının qərarı ilə çap olunan bir monoqrafik tədqiqat da fil.ü.f.d., dos. Əzizağa Nəcəfzadə və fil.ü.f.d., dos. Aynur Nəcəfovanın "Hüseyn Cavid yaradıcılığının tədqiqi, təbliği və tədrisi məsələlərinə dair" kitabıdır. Kitab Hüseyn Cavid əsərlərində təzad, ədalət, sülh və müharibə anlayışları, musiqi, Cavid əsərlərinin tədrisi, estetik tərbiyədə Muzeyin rolu və s. mövzulara həsr olunmuş bölmələrdən ibarətdir[26].

2022-ci ildə Gülbəniz Babaxanlının "Hüseyn Cavid fəlsəfəsinin tədqiq tarixi" monoqrafiyası çap olunub[27]. Kitabda H.Cavidin fəlsəfi fikirlərinin tədqiqinə dair materiallar təhlilə cəlb olunub, ədibin sufi baxışları və fəlsəfi mülahizələri öyrənilib.

2023-cü ildə isə Gülbəniz Babaxanlının "Ümummilli Lider Heydər Əliyev – Hüseyn Cavid irsinin böyük hamisi" adlı monoqrafiyası çap olunub. Monoqrafiyada Ümummilli Liderin

---

[24] Babaxanlı, G. Azərbaycan ədəbi fikri və Hüseyn Cavid. III kitab / G.Babaxanlı. – Bakı: Elm və təhsil, – 2020. – 256 s.

[25] Babaxanlı, G. Heydər Əliyev və Hüseyn Cavid / G.Babaxanlı. – Bakı: Proqress, – 2013. – 160 s.

Babaxanlı, G. Heydər Əliyev və Hüseyn Cavid / G.Babaxanlı. – Bakı: Elm və təhsil, – 2020. – 160 s.

[26] Nəcəfzadə, Ə. Hüseyn Cavid yaradıcılığının tədqiqi, təbliği və tədrisi məsələlərinə dair (Məqalələr toplusu) / Ə.Nəcəfzadə, A.Nəcəfova. – Bakı: Mütərcim, – 2018. – 56 s.

[27] Babaxanlı, G. Hüseyn Cavid fəlsəfəsinin tədqiq tarixi: (Hüseyn Cavid-140) / G.Babaxanlı. – Bakı: Elm və təhsil, – 2022, – 147 s.

Hüseyn Cavidə layiqli qiymət verilməsi sahəsində xidmətləri nəzərdən keçirilir[28].

H.Cavidin Ev Muzeyinin nəşrlərindən biri də Lütviyyə Əsgərzadənin 2023-cü ildə çap etdirdiyi “Hüseyn Cavid və Azərbaycan ədəbiyyatşünaslığı” kitabıdır. Kitabda Hüseyn Cavidin həyat və yaradıcılığına münasibət, bu barədə mübahisələr, Cavidin Azərbaycan və türk ədibləri ilə əlaqələri nəzərdən keçirilir, H.Cavid poeziyasının fərdi özəllikləri müəyyənləşdirilir[29].

Muzeydə aparılan tədqiqatların bir istiqaməti də H.Cavidə həsr olunmuş elmi konfransların təşkilidir: “Türk dünyasını işıqlandıranlar: M.Akif Ersoy, Hüseyn Cavid” (2013), “Hüseyn Cavid əsərlərinin gənc nəslin tərbiyəsində rolu” (2015), “Hüseyn Cavid və müasir gənclik” (2017), “Hüseyn Cavid yaradıcılığında ideallar və müasir dövr” (2017), “Hüseyn Cavid əbədiyyəti” (2019, 2020), “Hüseyn Cavid sənəti: ideallar və müasir dövr” (2022). Bu elmi yığıncaqlarda H.Cavidin ayrı-ayrı əsərlərinin təhlili, fəlsəfi fikirləri, bədii dili, müasir poeziyada Cavid ənənəsinin davamı, Cavid yaradıcılığının klassik irs, sufizm, folklor və mifologiya ilə yaxınlığı, Cavid və teatr, Muzeyin nəşrləri kimi məsələlərə toxunulmuşdur.

Muzeydə ərsəyə gələn və nəşrə hazırlanan elmi-tədqiqat materialları onu söyləməyə imkan verir ki, şairin Bakıdakı ev muzeyi mükəmməl elmi-tədqiqat müəssisəsi kimi formalaşaraq Azərbaycanda cavidşünaslığın aparıcı elmi mərkəzlərindən birinə çevrilmişdir.

“**H.Cavid əsərlərinin və cavidşünaslıq materiallarının nəşri”** adlı ikinci paraqrafda göstərilir ki, Muzeyin əsas fəaliyyət istiqaməti H.Cavid və ümumiyyətlə Cavidlər irsinə aid materialların toplanması, qorunması, tədqiqi və təbliğidir. Bu istiqamətdə Muzeydə 2003-cü ildən bəri H.Cavidin poeziyası və dram əsərlərinin

---

[28] Babaxanlı, G. Ümummilli Lider Heydər Əliyev – Hüseyn Cavid irsinin böyük hamisi. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə. Bakı: Elm və təhsil, 2023, 183 s.

[29] Əsgərzadə, L. Hüseyn Cavid və Azərbaycan ədəbiyyatşünaslığı / L.Əsgərzadə. – Bakı: Elm və təhsil, – 2023, – 358 s.

ayrı-ayrı nümunələrinin Azərbaycan və xarici dillərdə nəşri, ədibin əsərlərinin külliyyatının çapı həyata keçirilir. Bununla yanaşı muzeydə çoxcildlik "Cavidşünaslıq" araşdırmalar toplusu tərtib edilmiş və Cavid yaradıcılığına həsr olunmuş müxtəlif monoqrafiyalar yenidən nəşrə hazırlanaraq çap olunmuşdur.

H.Cavidin "Əsərləri"nin çoxcildlik nəşrləri 2003, 2005 və 2007-ci illərdə həyata keçirilmişdir. Muzeyin nəşrləri sırasında Cavidin "Topal Teymur", "Knyaz", "Uçurum" pyeslərinin kitabça halında çap versiyalarını da görə bilərik. Muzey H.Cavid əsərlərinin xarici dillərdə çapını da həyata keçirmişdir.

Muzey 2008, 2010 və 2016-cı illərdə H.Cavid əsərlərindəki aforizmlərin toplandığı "Cavid hikməti (seçmə aforizmlər)" adlı kitabı çap etdirmişdir. Muzeyin nəşrləri arasında "Sözləri Hüseyn Cavidindir" adlı not kitabı[30] və H.Cavidlə A.Şaiqin "Ədəbiyyat dərsləri" adlı dərsliyi də qeyd oluna bilər[31].

Göründüyü kimi, Muzey ilk növbədə Cavidin əsərlərini onun irsini təbliğ etmək, daha geniş oxucu kütləsinə çatdırmaq məqsədi ilə nəşr etdirmişdir. Bu sahədə Muzeyin ən böyük nailiyyəti isə müəllifin dil-üslub xüsusiyyətlərini qoruması, əsərlərini olduğu kimi bərpa etməsi olmuşdur[32].

H.Cavidin həyat və yaradıcılığı haqqında aparılmış araşdırmaları, əsərləri ilə bağlı tənqidi yazıları, onların tədrisi, təbliği, səhnə həyatı və s. ilə bağlı müxtəlif məlumatları bir yerə toplamaq Muzeyin fəaliyyətinin əsas istiqamətlərindən birini təşkil edir. Bu materialların vahid bazasının ictimailəşdirilməsi məqsədi ilə toplu halında nəşri Muzeyin son illərdə həyata keçirdiyi mühüm layihələrdəndir. "Cavidşünaslıq" toplusunun ilk variantı 2007-2009-cu illərdə nəşr olunsa da, onun daha təkmilləşdirilmiş geniş

---

[30] Sözləri Hüseyn Cavidindir (not kitabı) / tərt.-müəl. G. Babaxanlı (ön söz); ideya T. Kərimli; red. N. Quliyev. – Bakı: Elm və təhsil, – 2018. – 288 s.

[31] Cavid, H. Ədəbiyyat dərsləri / H.Cavid, A.Şaiq. – Bakı: Çaşıoğlu, – 2010. – 208 s.

[32] Məhərrəmova, K. AMEA Hüseyn Cavidin Ev Muzeyində Hüseyn Cavid əsərlərinin nəşri məsələləri // "Hüseyn Cavid əbədiyyəti" mövzusunda II respublika elmi konfransının materialları, – Bakı, – 26 oktyabr, – 2020, – s. 38.

variantının 10 cildinin nəşri 2012-ci ildə baş tutmuşdur. 10 cildin hər biri cavidşünaslığın 1912-ci ildən 1983-cü ilə qədər müxtəlif mərhələlərini əhatə edir. “Cavidşünaslıq” toplusunun tərtibçisi və ön sözün müəllifi G.Babaxanlıdır. “Cavidşünaslıq: araşdırmalar toplusu”nun 1994-2018-ci illəri əhatə edən 11-30-cu cildləri 2019-2020-ci illərdə nəşr olunmuşdur. H.Cavidin Ev Muzeyi tərəfindən “Cavidşünaslıq” çoxcildliyinin 31 və 32-ci cildləri də çap olunmuşdur. Bu cildlərdə 2018-2019-cu illərə aid cavidşünaslıq materialları öz əksini tapıb.

Vaxtilə kiril qrafikalı Azərbaycan əlifbasında işıq üzü görən monoqrafiyaların Muzey tərəfindən müasir əlifbada yenidən nəşr etdirilməsi də təqdirəlayiq işlərdəndir. Bu istiqamətdə Muzey tərəfindən T.Əfəndiyevin “Hüseyn Cavid: ideal həqiqət axtarışı”[33] və M.Cəfərin “Hüseyn Cavid” monoqrafiyası[34] nəşr edilmişdir.

Hüseyn Cavidin Ev Muzeyi tərəfindən H.Cavidin anadan olmasının 140 illiyi münasibətilə “Hüseyn Cavid: biblioqrafik göstərici” kitabı nəşr edilib. Burada H.Cavidin həyat və yaradıcılığının əsas tarixləri, əsərlərinin janr xüsusiyyətləri nəzərə alınmaqla xronoloji qaydada geniş təsnifi verilib[35].

Göründüyü kimi, Muzeyin nəşrləri həm Azərbaycan cavidşünaslığının ən mühüm nailiyyətlərini ortaya qoymaq, həm də ümumi mənzərəsini yaratmaq baxımından əhəmiyyətlidir. Bu gün H.Cavid irsini araşdıran hər hansı bir tədqiqatçının heç bir kitabxanaya, arxivə müraciət etməsinə ehtiyac duyulmur. Sadəcə, Muzeyin fondundan istifadə etmək kifayətdir.

Dissertasiyanın III fəsli **“Hüseyn Cavid yaradıcılığı dünya ədəbiyyatşünaslığında”** adlanır. Bu fəslin **“Hüseyn Cavid irsi türk dünyasında”** adlanan I paraqrafında H.Cavid yaradıcılığının Türkiyə,

---

[33] Əfəndiyev, T. Hüseyn Cavid: ideal həqiqət axtarışı / T.Əfəndiyev. – Bakı: Proqress, – 2013. – 260 s.

[34] Cəfər, M. Hüseyn Cavid / M.Cəfər. – Bakı, – 2016. – 310 s.

[35] Hüseyn Cavid. Biblioqrafik göstərici / Tərtibçi V.Həsənova, red. G.Babaxanlı. – Bakı: Elm və təhsil, – 2023, – 1023 s.

Özbəkistan, Qazaxıstan kimi türk dövlətlərində öyrənilməsi məsələsinə toxunulmuşdur.

Ümumtürk ədəbiyyatının ortaq dahisi, "hürriyyət və insani fikirlərin romantiki" (M.Ə.Rəsulzadə) H.Cavidin ədəbi şəxsiyyətinə və yaradıcılığına Azərbaycanla yanaşı Türkiyədə də maraq göstərilmiş, tədqiqata cəlb edilmişdir. Bu araşdırmalarda Cavidin həyat və yaradıcılığı ilə bağlı mühüm və maraqlı məlumatlar verilmiş, ümumbəşəri bədii irsi Türkiyə-Azərbaycan ortaq ədəbi-mədəni dəyərləri kontekstində işıqlandırılmışdır.

Apardığımız incələmələrdən belə nəticəyə gəldik ki, Türkiyə ədəbi-nəzəri fikir tarixində H.Cavidin həyat və yaradıcılığına ilk dəfə dünya şöhrətli türkoloq, ədəbiyyatşünas, prof., Dr. Mehmet Fuad Köprülü (1890-1966) müraciət etmişdir. F.Köprülü H.Cavidin "İblis" əsərinə münasibətdə çağdaş ədəbi tənqid üçün də aktual olan ədəbi-estetik dəyər formalaşdırmışdır: *"Xüsusilə, "İblis" pyesi Azəri ədəbiyyatında ədəbi qiymət etibarilə heç irad tutulmayacaq bir əsərdir"*[36]. Qeyd edək ki, Cavid sənətini yüksək qiymətləndirən ulu öndər H.Əliyev də çıxışlarının birində Cavidin "İblis"inin Qötenin "Faust"undan geri qalmadığını xüsusi vurğulamışdır. Burada biz hər iki dahi ictimai və siyasi xadimin – F.Köprülü və H.Əliyevin H.Cavidin şah əsərinə verdikləri əsl ədəbi-nəzəri dəyərin əbədiliyinə şahid oluruq.

Prof., Dr. Yavuz Akpınar[37], Yusuf Gedikli[38], dos., Dr. Banuçiçek Kırzıoğlu[39], Dr. Jalə Babaşova (Türkiyədə yaşayıb

---

[36] Köprülü, M. F. "Azəri" / M.F.Köprülü. – Bakı: Elm, – 2000. – s.61.

[37] Akpınar, Y. Azerî edebiyatı araştırmaları / Y.Akpınar. – İstanbul: Dergah yayınları, – 1994. – 512 s.

[38] Gedikli, Y. Hüseyin Cavid Rasizade (1882-1941)'nin hayatı ve eserleri // İstanbul: İstanbul Üniversitesi Edebiyat Fakültesi Türk Dili ve Edebiyatı Dergisi, – 2008. № 38, – s.99-135.

[39] Kırzıoğlu, B. Azerbaycan'ın Ünlü Şair-Dram Yazarı Rasizade Hüseyin Cavid ve İki Şiiri // Erzurum: A.Ü. Türkiyat Araştırmaları Enstitüsü Dergisi, – 2001. № 16, – s.121-142.

yaradan azərbaycanlı ədəbiyyatşünas)[40] da H.Cavidin həyat və yaradıcılığı haqqında araşdırmalar aparmışlar. H.Cavid türk ədəbiyyatşünaslığında Azərbaycanın ən görkəmli şair və dramaturqlarından biri hesab olunur. Türk alimləri onun həyat və fəaliyyətinə aid bir çox faktları öyrənmiş, müraciət etdiyi mövzuları müxtəlif ictimai-siyasi məsələlərə münasibətini araşdırmış, onu bir pedaqoq, filosof, ictimai-siyasi xadim kimi də dəyərləndirmişlər.

Türkiyədə aparılan araşdırmaların mühüm qismini şairin lirikasına həsr olunmuş tədqiqatlar təşkil edir. Onun şeirləri, onların formaları və mövzuları türk ədəbiyyatşünasları tərəfindən təhlil olunmuş, həmçinin bu şeirlər onlarla eyni dövrdə yaranmış türk ədəbiyyatının bədii nümunələri ilə müqayisə edilmişdir. Türkiyədə Cavidin fəlsəfi poeziyasına yüksək qiymət verilmişdir[41].

Türkiyədə H.Cavid yalnız böyük şair kimi yox, həm də böyük dramaturq kimi tanınmışdır. Onun pyesləri, xüsusilə türk dünyasının, o cümlədən Türkiyənin tarixi və müasir dövrünə aid olanlar türk ədəbiyyatşünasları tərəfindən tədqiq olunmuşdur[42]. “Uçurum” pyesi H.Cavidin Türkiyə ədəbiyyatşünaslığında ən çox araşdırılmış əsəridir[43].

---

[40] Babashova, Z. 19. Yüzyılın sonu 20. Yüzyılın Başlarında Azerbaycan ve Türk Edebiyatı; Hüseyin Cavid, Türk Edebiyatı ile Etkileşimleri: / Doktora tezi. / Ankara, 2014. – 475 s.

[41] Məhərrəmova, K. Filosof Şair Hüseyn Cavidin Poeziyası Türkiyə Ədəbiyyatşünaslığında // VII. Uluslararası Türk Dünyası Araştırmaları Sempozyumu. Bildiriler Kitabi. Cilt I, – Niğde, – 20-23 Ekim, – 2020, – s. 470.

[42] Uygur, E. Azerbaycanlı yazar ve şair Hüseyin Cavidin “Uçurum” piyesinde Doğu ve Batı kültürlerinin tasviri // Bakı: Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutu, Elmi axtarışlar, – 2006. c. XXIII, – s.10. Barmanbay, Afina. Hüseyin Cavid’in “İblis” faciasına dini-felsefi bakış // SUTAD, 2019, № 45, s.373. Atuk, H.N. Rasizade Hüseyin Cavid’in “Uçurum” ve “Şeyda” isimli piyeslerinin incelenmesi: / Yüksek lisans tezi. / – Ankara, 2014. – 340 s. Atuk, H.N. Rasizade Hüseyin Cavid’in “Uçurum” ve “Şeyda” isimli piyeslerinin incelenmesi: / Yüksek lisans tezi. / – Ankara, 2014. – 340 s.

[43] Məhərrəmova, K. Hüseyn Cavidin dramaturgiyası Türkiyə ədəbiyyatşünaslığında // Bəxtiyar Vahabzadənin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş VI Beynəlxalq elmi konfrans. Avropa və Asiya: tarix, mədəniyyət və qarşılıqlı əməkdaşlıq, Qars, – 25-26 avqust, – 2020, – s.75.

Cavid əsərlərinə türk ədəbiyyatının təsiri və onun istifadə etdiyi özünəməxsus dil və üslub çaları qardaş ölkənin ədəbiyyatşünaslığında xüsusən geniş araşdırma obyektinə çevrilən mövzulardandır. Xüsusilə Türkiyədə aparılan araşdırmalarda Cavidin dilini Osmanlı türkcəsi ilə eyniləşdirmək cəhdləri olmuşdur[44]. Fikrimizcə, ədib əsərlərində ortaq türkcənin elə bir örnəyini ortaya qoymuşdur ki, sələflərinin təcrübəsindən qaynaqlanan kifayət qədər uğurlu cəhdi xələflərinin irsinə də müsbət təsirini göstərə bilmişdir.

I paraqrafda H.Cavid yaradıcılığının Özbəkistanda tədqiqi haqqında da danışılır. H.Cavidin ədəbi irsi özbək ədəbiyyatşünaslarının diqqətini cəlb etmiş, xüsusən son dövrlərdə dahi sənətkarın həyat və yaradıcılığına aid çoxsaylı araşdırmalar aparılmışdır. Bu tədqiqatlarda əsas yeri "Topal Teymur" dramı tutsa da, 2012-ci ildə özbək dilinə çevrilərək nəşr edilən "Şeyx Sənan" faciəsi də tədqiqatçıların araşdırma obyektinə çevrilmişdir[45].

2012-ci ildə Muzey tərəfindən Bakıda keçirilmiş "Hüseyn Cavid yaradıcılığı çağdaş təfəkkür işığında" (Hüseyn Cavid – 130) adlı beynəlxalq elmi konfransda bir çox özbək ədəbiyyatşünasları da iştirak etmiş, Cavidin "Topal Teymur" pyesində tarixi və diplomatik materiallardan istifadə, pyesin özbək müəlliflərin eyni mövzulu əsərləri ilə müqayisəsi, Cavid şeiriyyəti, "Peyğəmbər" dramı, H.Cavidin yaşadığı ictimai-siyasi mühit kimi mövzularda məruzələrlə çıxış etmişlər[46].

---

[44] Akpınar, Y. Azerî edebiyatı araştırmaları / Y.Akpınar. – İstanbul: Dergah yayınları, – 1994. – s.435.

Babashova, Z. XX. Yüzyıl Azerbaycan Romantizmi // Hüseyn Cavid ve Türk Edebi Ortamı, Türk Dünyası Bilgeler Zirvesi: Gönül Sultanları Bulaşması, – Eskişehir, – 2014, – s.633.

[45] Məhərrəmova, K. Hüseyn Cavid yaradıcılığının tədqiqi özbək ədəbiyyatşünaslığında // 4th International Nowruz Conference on Scientific Research, – Karabagh, – March 18-21, – 2021, – s. 335.

[46] "Hüseyn Cavid yaradıcılığı çağdaş təfəkkür işığında" (Hüseyn Cavid – 130) Beynəlxalq elmi konfransın materialları, – Bakı: Proqress, – 22-24 oktyabr, – 2012, – 158-200.

H.Cavid yaradıcılığı mövzusunda Özbəkistanda bir sıra məqalələr çap olunmuşdur[47].

Ə.Şaimov 2008-ci ildə Daşkənddə "Hüseyn Cavid və özbək dramaturgiyası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

Göründüyü kimi, özbək ədəbiyyatşünaslığında Azərbaycan ədəbiyyatının ümumtürk mədəniyyətində xüsusi yerə malik görkəmli nümayəndəsi H.Cavid haqqında mühüm araşdırmalar aparılmış, ədəbi-nəzəri səciyyəsi ilə seçilən elmi tədqiqat işləri ərsəyə gətirilmişdir.

H.Cavidin bədii irsi Qazaxıstan ədəbiyyatşünaslığında da öyrənilmişdir. H.Cavidin anadan olmasının 135 illiyi münasibətilə 2018-ci ildə Əl-Fərabi adına Qazaxıstan Milli Universiteti tərəfindən H.Cavidin şeirləri qazax dilində çap edilmişdir. Qazaxıstan Milli Universitetində 2018-ci ildə mayın 17-də H.Cavidin 135 illik yubileyinə həsr olunmuş konfrans da keçirilmişdir.

Qazax ədəbiyyatşünaslığında H.Cavidin həyat və yaradıcılığı Danday İskakulının 2015-ci ildə çapdan çıxmış, ədəbiyyat tarixinə və türk xalqları ədəbiyyatına həsr olunmuş "Mənəvi istəklər" kitabında qısa da olsa, öz əksini tapmışdır[48].

A.J.Şərip Cavid yaradıcılığını onunla yaxın dövrdə XX əsrin əvvəllərində yaşamış qazax şairlərinin (M.Cumabayev, M.Dulatov, S.Torayğırov, B.Küleyev) əsərləri ilə müqayisəli şəkildə öyrənmiş, hər iki xalqın ədəbiyyatı üçün səciyyəvi olan ortaq xüsusiyyətləri aşkara çıxarmışdır[49].

---

[47] Каримов, Н. Ҳусайн Жовид – буюк озарбайжон драматурги // Тошкент: Жаҳон адабиёти, – 2012. № 10 (185), – s.157. Йўлдошев, Қ., Йўлдошева, М. Амир Темур Ҳусайн Жовид талқинида // Тошкент: Жаҳон адабиёти, – 2013. № 4 (191), – с.158. Қурбанова, Ф. "Шайх Санъон" драмасида анъана ва индивидуаллик // "Filologiyaning dolzarb masalaları" mavzusidagi Respublika ilmiy-uslubiy anjumani materiallari (2020-yil 25-aprel). 2-kitob, – Qo'qan, – 2020. – s.75, 77.

[48] Ысқақұлы, Д. Рухани толғамдар: Зерттеулер / Д.Ысқақұлы. – Алматы: «Каратау КБ» ЖШС; «Дәстүр», – 2015. – s.240-242.

[49] Шәріп, А.Ж. Хүсейін Жавид және XX ғасыр басындағы қазақ поэзиясы: рухани ізденістер мен көркемдік ерекшеліктер // Астана: Л.Н.

Araşdırmalarımız nəticəsində belə qənaətə gəldik ki, Qazaxıstanda cavidşünaslıq sahəsində görülən işlər son dövrlərdəki tempdə davam etdirilsə, H.Cavid qazax oxucusunun maraqla oxuduğu türk ədiblərindən birinə çevrilə və onun irsi Qazaxıstanda hərtərəfli öyrənilə bilər.

**“Hüseyn Cavidin yaradıcı şəxsiyyəti və bədii irsi Avropa ədəbi-tənqidi fikrində”** adlanan paraqrafda göstərilir ki, müasir dövrdə ölkələr və xalqlar arasında əlaqələrin artması, qloballaşmanın genişlənməsi Azərbaycan mədəniyyətinin dünyada daha çox tanınmasına şərait yaratmışdır. Bunu ölkəmizin dünyanın ictimai-mədəni həyatında rolunun artması ilə də bağlamaq olar.

H.Cavidin “Şeyda” və “Maral” pyeslərinin bolqar dilinə tərcümələri 2017-ci ildə H.Cavidin anadan olmasının 135 illiyi münasibətilə kitab halında çapdan çıxmışdır. 2017-ci ildə Bolqarıstanda H.Cavidin 135 illiyinə həsr olunmuş konfrans keçirilmişdir. 2017-ci il dekabrın 13-də H.Cavidin 135 illik yubileyinə həsr olunmuş “Hüseyn Cavid yaradıcılığında ideallar və müasir dövr” adlı beynəlxalq konfransda Bolqarıstandan olan tədqiqatçılar da iştirak etmişlər[50].

Ukraynalı tədqiqatçı İsmet Zaatovun “Krım-tatar milli teatrının yaranması və inkişafı prosesində Azərbaycan dramaturgiyasının rolu (H.Cavid və A.Refatov)” adlı məruzəsindən öyrənirik ki, Krımda səhnəyə qoyulan əsərlər arasında Cavidin pyesləri də olmuşdur[51].

Belqrad Universitetinin əməkdaşı, fəlsəfə doktoru Branko Vrans “Dünya ədəbiyyatının şərqi: Azərbaycandan Serbiyaya” adlı

---

Гумилев атындағы Еуразия ұлттық университетінің хабаршысы, Филология сериясы, – 2018. №1 (122), – s.153.

[50] Hüseyn Cavid yaradıcılığında ideallar və müasir dövr (Beynəlxalq elmi konfransın materialları) / Red. hey. sədri İ.Həbibbəyli. – Bakı: Elm və təhsil, – 2017. – s.31-34.

[51] Заатов, И. Роль азербайджанской драматургии в процессе становления и развития крымско-татарского национального театра (Г.Джавид и А.Рефатов) // “Hüseyn Cavid yaradıcılığı çağdaş təfəkkür işığında” mövzusunda beynəlxalq elmi konfrans (Hüseyn Cavid – 130), – Bakı, – 22-24 oktyabr, – 2012-ci il, s.130-131.

məqaləsində serb şairi Desanka Maksimoviçin yaradıcılığını H.Cavidlə müqayisə edir[52].

1975-ci ildə Polşada nəşr olunmuş Azərbaycan ədəbiyyatı antologiyasında – "Zlote kamienie" ("Qızıl daşlar") adlı kitabda H.Cavidin "Görmədim" qoşması və "Sevinmə, gülmə" şeirləri öz əksini tapmış, Cavidin həyat və yaradıcılığı haqqında qısa məlumat verilmişdir[53].

Fransanın Nimes Universitetinin professoru Silvi Josserand "Ədəbiyyat siyasi cinayətdirmi?" adlı məruzəsində sovet dövründə şair və yazıçılara qarşı edilən repressiyalar məsələsinə toxunur və bunu H.Cavidin həyat və yaradıcılığı, fikir dünyası vasitəsilə nəzərdən keçirir[54].

Fransız tədqiqatçısı Fransuaz Andriö və Nigar Babaxanovanın həmmüəllif olduqları "Böyük romantik" adlı məruzədə bildirilir ki, H.Cavid *"dövrün ən böyük lirik şairi sayılırdı"*[55].

H.Cavidin "İblis" pyesi Monteneqro dilinə tərcümə olunaraq kitab şəklində çap olunub. 2019-cu il oktyabrın 22-də Monteneqro Universitetində bu kitabın təqdimatı keçirilib[56].

**"Hüseyn Cavid Amerika elmi-ədəbi müstəvisində"** adlı paraqrafda H.Cavid yaradıcılığının Amerikada öyrənilməsi haqqında danışılır. Cavid haqqında ABŞ-da ilk məlumatı Odri Altstadt

---

[52] Vraneš, B. East of World Literature: From Azerbaijan to Serbia // "Hüseyn Cavid və dünya ədəbiyyatı" mövzusunda Respublika elmi konfransının tezisləri (12 aprel 2019-cu il), – Bakı: ADU, – 2019, – s.9-16.

[53] Абдуллабекова, Г. Гусейн Джавид в исследованиях и переводах польских литературоведов // Hüseyn Cavidin anadan olmasının 125 illiyinə həsr edilmiş "Hüseyn Cavid irsi və müasir dövr" Beynəlxalq elmi konfransının materialları, – Bakı, – 2007, – s.91-92.

[54] Josserand, S. Is literature a political offense? // Hüseyn Cavid və dünya ədəbiyyatı. Respublika elmi konfransının tezisləri, – Bakı, – 12 aprel, – 2019, – s.36-38.

[55] Andriö, F., Babaxanova, N. Grand romantique // Hüseyn Cavidin anadan olmasının 125 illiyinə həsr edilmiş "Hüseyn Cavid irsi və müasir dövr" Beynəlxalq elmi konfransının materialları, – Bakı, – 2007, – s.72.

[56] Hüseyn Cavidin "İblis" əsəri Monteneqroda təqdim olundu: [Elektron resurs] / Bakı, – 24 oktyabr, 2019. URL: https://modern.az/az/news/215440

vermişdir. O.Altstadt 1980-1981-ci illərdə Azərbaycanda olmuş, XX əsrin I yarısı Azərbaycan ədəbiyyatı haqqında doktorluq dissertasiyası üçün araşdırma aparmışdır[57].

O.Altstadt "Azərbaycan türkləri. Rusiya idarəçiliyi altında güc və kimlik" kitabında qeyd edir ki, 1960-cı illərdə çap olunan ədəbiyyat tarixi kitablarında repressiya olunan ədiblərin yalnız ölüm tarixləri göstərilirdi[58]. O, "Sovet Azərbaycanında mədəniyyət siyasətləri, 1920-1940-cı illər" adlı kitabında H.Cavidin "Şeyx Sənan" və N.Nərimanovun "Bahadır və Sona" əsərlərini müqayisə edir və bədii cəhətdən "Şeyx Sənan"a üstünlük verir[59].

Dosent Nərgiz Ərtürk "Lenin Cavid vasitəsilə. Kommunizmin digər izahına doğru" adlı məqaləsində Cavid yaradıcılığında ifadə olunan fikirləri Leninin ideyaları ilə əlaqələndirir[60]. Müəllif H.Cavidin ideyalarının Leninin fikirlərinin davamı səciyyəsi daşıdığını söyləməklə yumşaq şəkildə desək, yanılır.

Araşdırmaya cəlb etdiyimiz materiallar onu söyləməyə imkan verir ki, Qərb alimləri daha çox Cavidin konkret əsərini təhlil etmiş və ya yaradıcılığının hansısa bir Avropa ölkəsində tədqiq və tərcümə tarixinə ümumi nəzər salmışlar. Bir qisim tədqiqatçılar isə H.Cavid yaradıcılığına müraciət etmiş, onun ədəbiyyatımızdakı mövqeyini müəyyən etməyə çalışmışlar.

Dissertasiyanın məzmunu ilə bağlı əsas **nəticələr** bunlardır:

1. Görkəmli şair və dramaturq Hüseyn Cavid haqqında yazılan məqalələr, aparılan tədqiqatlar Azərbaycan və dünya

---

[57] Vəliyeva Ş. Hüseyn Cavid ədəbi irsi ABŞ-da // "Hüseyn Cavid və dünya ədəbiyyatı" mövzusunda Respublika elmi konfransının tezisləri, – Bakı: ADU, – 12 aprel, – 2019, s. 460.

[58] Altstadt, A.L. The Azerbaijani Turks. Power and Identity under Russian Rule / A.L.Altstadt. – Stanford: Hoover Institution Presss-Stanford University, – 2013. – s.120.

[59] Altstadt, A.L. The Politics of Culture in Soviet Azerbaijan, 1920-40 / A.L.Altstadt. – London–New York: Routledge, – 2016. – s.23.

[60] Ertürk, N. Lenin via Cavid. Towards a Communism of Other-Determination // International Journal of Postcolonial Studies, – 2016. Volume 18, Issue 5, – pp. 627-650.

ədəbiyyatşünaslığında xüsusi yer tutur. Xüsusən Azərbaycanda və digər türk dövlətlərində cavidşünaslığa həsr olunmuş araşdırmalar çox genişdir. Burada Hüseyn Cavidin həm həyatı, həm əsərləri, həm də fəlsəfi fikirlərinə həsr olunmuş tədqiqatlar var.

2. Cavidşünaslığın tarixi XX əsrin birinci yarısından başlasa da, 1982-ci ildən etibarən Hüseyn Cavid haqqında yazılan məqalələr və tədqiqatların sayı artmışdır. 1982-ci ildə yazılmış yazılar arasında xatirələr üstün yer tutur, bunların əksəriyyəti H.Cavidin yubileyi ilə bağlıdır.

3. Bu dövrdə Hüseyn Cavid haqqında aparılan tədqiqatlarda ona tənqidi münasibət xeyli yumşalır. H.Cavid yaradıcılığının müxtəlif məsələlərinə (H.Cavid yaradıcılığında sufizm, onun fəlsəfi fikirləri, "Peyğəmbər" və "Topal Teymur" əsərləri və s.) dair yazılar yazılmağa başlanmışdır.

4. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra Hüseyn Cavid yaradıcılığına maraq daha da güclənir. Hüseyn Cavidin poeziyasına və dramaturgiyasına münasibət dəyişir, sovet ideologiyası yerinə, milli azərbaycançılıq ideologiyasına əsaslanan məqalələr və kitablar yazılır. H.Cavidin əsərlərindəki türkçülük, sufi və İslam düşüncələri, bu əsərlərə əvvəlki dövrlərdə verilən birtərəfli və yanlış qiymətin tənqidi kimi məsələlər bu dövrdə əsas yer tutur.

5. Azərbaycan Milli Elmlər Akademiyası Hüseyn Cavidin Ev Muzeyi cavidşünaslıq tədqiqatlarının inkişafında mühüm rol oynayır. Muzeydə Hüseyn Cavidin əsərlərinin külliyyatının və əsərlərin ayrı-ayrılıqda nəşrləri, onların müxtəlif xarici dillərə tərcümə olunması və cavidşünaslıq materiallarının ("Cavidşünaslıq" toplusu, monoqrafiyaların çağdaş əlifbada çapa hazırlanması) nəşri sahəsində böyük işlər görülür. "Cavidşünaslıq" araşdırmalar toplusu bu cəhətdən çox mühüm rol oynayır. Bu günə qədər 30 cildi çap olunmuş topluda XX əsrin əvvəllərində H.Cavid haqqında yazılmış ilk yazılardan etibarən onun həyat və yaradıcılığı, şəxsiyyəti barədə çap olunmuş bütün publisistik, kütləvi, tənqidi məqalələr, xatirə yazıları, elmi məqalələr, konfrans materialları, hətta şeirlər, müxtəlif dövrlərdə H.Cavidə aid keçirilmiş tədbirlər haqqında məlumatlar,

H.Cavidin əsərlərinin nəşrlərinə və ona həsr olunmuş kitab və monoqrafiyalara dair resenziyalar və s. toplanmışdır.

6. Hüseyn Cavidin Ev Muzeyində H.Cavidə həsr olunmuş araşdırmaların aparılması da xüsusi əhəmiyyət daşıyır. Muzeyin əməkdaşlarının, xüsusən muzeyin direktoru filologiya elmləri doktoru Gülbəniz Babaxanlının bu sahədə bir çox tədqiqat əsərləri, o cümlədən monoqrafiyaları çap olunur, H.Cavidə həsr olunmuş respublika və beynəlxalq səviyyəli elmi konfranslar keçirilir, muzey əməkdaşları da bu konfranslarda öz məruzələri ilə çıxış edir.

7. Digər türk xalqlarının ədəbiyyatşünaslığında Hüseyn Cavid yaradıcılığının öyrənilməsi son dövrlərdə genişlənir. Bu xüsusilə 90-cı illərdə müxtəlif türk dövlətlərinin müstəqillik qazanması ilə bağlıdır. Burada H.Cavidin türk xalqlarının həyatına və tarixinə həsr olunmuş əsərlərinin (“Uçurum”, “Topal Teymur”, “Səyavuş” və s.) öyrənilməsi, digər türk xalqlarının ədəbiyyatındakı bədii ənənələrin Hüseyn Cavid yaradıcılığı ilə müqayisə edilməsi və qarşılıqlı təsirlənmə məsələləri əsas yer tutur. Bu sahədə ən geniş yeri Türkiyədə aparılan araşdırmalar tutur. Bu araşdırmalarda Hüseyn Cavid yaradıcılığı Osmanlı ədəbiyyatı ilə müqayisə olunur, xüsusən H.Cavid yaradıcılığında Sərvəti-fünun ədəbiyyatının təsirinə diqqət yetirilir.

8. Son dövrlərdə Avropa və Amerikada da H.Cavid yaradıcılığı nəzərdən keçirilir. Onun sovet dövründəki ədəbi fəaliyyəti və məruz qaldığı təzyiqlər, sovet ideologiyası ilə münasibəti, H.Cavidin yaradıcılığının Avropa ədəbiyyatı ilə müqayisəsi bu araşdırmaların əsas mövzusunu təşkil edir.

9. Hüseyn Cavidə həsr olunmuş tədqiqatlar bu gün də davam edir. Keçirilən konfranslar, yazılan məqalə, kitab və monoqrafiyalar H.Cavid yaradıcılığının müxtəlif xüsusiyyətlərini əks etdirir.

**Dissertasiyanın əsas məzmunu aşağıdakı məqalələrdə öz əksini tapmışdır:**

1. Cavidşünaslığın təşəkkülü // “Hüseyn Cavid və müasir gənclik” mövzusunda respublika elmi konfransının materialları, – Bakı, – 21 oktyabr, – 2016, – s. 86-89.

2. Ulu Turan aşiqi Hüseyn Cavidin ədəbi irsi Türkiyə ədəbiyyatşünaslığında: XX əsrin 20-40-ci illəri // III Beynəlxalq Həmzə Nigari türk dünyası mədəni irsi simpoziumu materialları, – Şamaxı, – 17-18 may, – 2017, – s. 503-505.

3. Ümumbəşəri sənətkar Hüseyn Cavidin ədəbi irsi dünya dillərində // "Hüseyn Cavid yaradıcılığında ideallar və müasir dövr" mövzusunda Beynəlxalq elmi konfransın materialları, – Bakı: Elm və təhsil, – 13 dekabr, – 2017, – s. 143-144.

4. Böyük Turan Şairi Hüseyn Cavidin bədii irsi özbək ədəbiyyatşünaslığında // II International Scientific Conference of Young Researchers. Dedicated to the 95 Anniversary of the National leader of Azerbaijan, Heydar Aliyev – Baku, – 27-28 April, – 2018, – Azerbaijan, s. 1171-1173.

5. Hüseyn Cavid yaradıcılığında təsəvvüf məsələlərinin öyrənilməsi tarixindən // Bakı: Əlyazmalar yanmır, – 2019. № 2 (9), – s.116-124.

6. Hüseyn Cavidin bədii irsi Qazaxıstan elmi-ədəbi mühitində // "Hüseyn Cavid və dünya ədəbiyyatı" mövzusunda Respublika elmi konfransının tezisləri, – Bakı: ADU, – 12 aprel, – 2019, – s. 150-159.

7. Ümumbəşəri ideallar şairi Hüseyn Cavid Bolqarıstan ədəbiyyatşünaslığında // III International Scientific Conference of Young Researchers. Dedicated to the 96 Anniversary of the National leader of Azerbaijan, Heydar Aliyev, – Baku, – 29-30 April, – 2019, s. 1187-1191.

8. Azərbaycan ədəbiyyatşünaslığında Hüseyn Cavidin yaratdığı İblis obrazı // "Hüseyn Cavid əbədiyyəti" mövzusunda respublika elmi konfransının materialları, – Bakı, – 24 oktyabr, – 2019, s. 73-80.

9. Hüseyn Cavid fəlsəfəsinin öyrənilmə tarixindən // Bakı: Filologiya məsələləri, – 2020. № 2, – s. 263-274.

10. Hüseyn Cavidin yaratdığı İblis obrazı Azərbaycan ədəbiyyatşünaslığında // Bakı: Dil və ədəbiyyat, – 2020. № 2(114), – s. 115-118.

11. Hüseyn Cavidin “Şeyx Sənan” pyesi Azərbaycan ədəbiyyatşünaslığında // Bakı: Filologiya və sənətşünaslıq, – 2020. № 1, – s. 76-81.
12. Filosof şair Hüseyn Cavidin poeziyası Türkiyə ədəbiyyatşünaslığında // IV International Scientific Conference of Young Researchers. Dedicated to the 97 Anniversary of the National Leader of Azerbaijan, Heydar Aliyev. Baku: Baku Engineering University, – 2020, – s. 1171-1175.
13. AMEA Hüseyn Cavidin Ev Muzeyində Hüseyn Cavid əsərlərinin nəşri məsələləri // “Hüseyn Cavid əbədiyyəti” mövzusunda II respublika elmi konfransının materialları, – Bakı, – 26 oktyabr, – 2020, – səh. 34-39.
14. Hüseyn Cavidin dramaturgiyası Türkiyə ədəbiyyatşünaslığında // Bəxtiyar Vahabzadənin anadan olmasının 95 illik yubileyinə həsr olunmuş VI Beynəlxalq elmi konfrans. Avropa və Asiya: tarix, mədəniyyət və qarşılıqlı əməkdaşlıq, Qars, – 25-26 avqust, – 2020, – s.70-77.
15. Hüseyn Cavid şəxsiyyəti Türkiyə ədəbiyyatşünaslığında // Cümhuriyet Zirvesi. 3. Uluslararası Sosyal Bilimler Kongresi, – Erzurum, – 30 Ağustos, – 2020, – s.108-117.
16. Hüseyn Cavid yaradıcılığının dil və üslub xüsusiyyətləri Türkiyə ədəbiyyatşünaslığında // Cümhuriyet Zirvesi. 3. Uluslararası Sosyal Bilimler Kongresi, – Erzurum, – 30 Ağustos, – 2020, – s. 118-124.
17. Filosof Şair Hüseyn Cavidin Poeziyası Türkiyə Ədəbiyyatşünaslığında // VII. Uluslararası Türk Dünyası Araştırmaları Sempozyumu. Bildiriler Kitabi. Cilt I, – Niğde, – 20-23 Ekim, – 2020, – s. 469-482.
18. Hüseyn Cavid yaradıcılığının tədqiqi özbək ədəbiyyatşünaslığında // 4th International Nowruz Conference on Scientific Research, – Karabagh, – March 18-21, – 2021, – s. 333-342.
19. Türk edebiyatı geleneklerinin Hüseyin Cavid eserlerine etkisi // Münhen: Zeitschrift für die Welt der Türken, – 2021. Vol. 13, No. 1, – s. 49-60.

20. Hüseyn Cavidin Ev Muzeyinin elmi-yaradıcı fəaliyyəti (müstəqillik illərində) / K.Məhərrəmova. – Bakı: Elm və təhsil, – 2021. – 128 s.
21. Дом-Музей Гусейна Джавида НАНА как издатель наследия и материалов по исследованию творчества Гусейн Джавида // Науковий журнал «Вчені записки ТНУ імені В. І. Вернадського. Серія: Філологія. Соціальні комунікації» зареєстровано Міністерством юстиції України (Свідоцтво про державну реєстрацію друкованого засобу масової інформації серія КВ № 15711-4182Р від 28.09.2009 року), – 2020. № 4, – s.122-130.
22. Hüseyn Cavidin "Azər" poemasına həsr olunmuş araşdırmalar // Bakı: Filologiya məsələləri, – 2022, № 3, – s. 243-251.
23. Hüseyn Cavid yaradıcılığının forma xüsusiyyətləri "Cavidşünaslıq" toplusunda// III Qarabağ Beynəlxalq Sosial və Humanitar Elmlərdə Müasir Araşdırmalar Konfransı ŞUŞA İLİ-2022, – Şuşa, – 7-10 iyun, – 2022, – s 16-18.

**Dissertasiyanın müdafiəsi 29 may 2024-cü il tarixində saat $16^{00}$ Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya Şurasının iclasında keçiriləcək.**

**Ünvan: AZ1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi, 31, AMEA Folklor İnstitutu**

**Dissertasiya ilə AMEA Folklor İnstitutunun Elmi Kitabxanasında tanış olmaq mümkündür.**

**Dissertasiya və avtoreferatın elektron versiyaları Ali Attestasiya Komissiyasının (aak.gov.az) və AMEA Folklor İnstitutunun (folklor.az) rəsmi internet saytında yerləşdirilmişdir.**

**Avtoreferat 29 IV 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.**

**Çapa imzalanıb: 22.04.2024**
**Kağız formatı: 60x84/ 1/16**
**Həcm: 44 674 işarə**
**Tiraj: 100**